# Neft Daşlarının 70 illiyinə həsr olunmuş tədbir iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciəti

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ



***Möhtərəm cənab Prezident!***

Sizi Neft Daşlarında neft hasilatının başlanmasının 70-ci ildönümünə həsr olunmuş təntənəli mərasimin iştirakçıları, ilk növbədə dəniz neftçiləri və SOCAR-ın çoxminli əmək kollektivi adından hərarətlə salamlayır, bu tarixi gün münasibətilə Zati-alinizi təbrik edirik.İş qrafikinizin gərgin olmasına baxmayaraq, vaxt tapıb Neft Daşlarında ilk neftin hasil olunmasının 70 illiyi münasibətilə neftçilərə təbrik ünvanlamağınız, əməkdə fərqlənən bir qrup dəniz neftçisini Vətənimizin yüksək mükafatlarına, orden və medallara, fəxri təqaüdə layiq görməyiniz bu günü bizim üçün ikiqat bayrama çevirmiş, sevincimizə sevinc qatmışdır. Azərbaycan neft-qaz sənayesi tarixinin bu əlamətdar anında Zati-Alinizə müraciət etməkdən böyük şərəf duyur, bütün neft-qaz əməkçiləri adından Sizə dərin minnətdarlığımızı və sonsuz ehtiramımızı bildiririk. Dövlətimiz və onun müdrik rəhbəri olaraq Siz neftçi əməyini həmişə yüksək qiymətləndirirsiniz. Bugünkü təbrik və təltiflər də dəniz neftçilərinin rəşadətli əməyinə verdiyiniz yüksək dəyərin növbəti təzahürüdür. Ölkəmizin neft-qaz sənayesinin inkişafını daim diqqət mərkəzində saxladığınıza, SOCAR-ın çevik, rəqabətədavamlı və modern bir şirkətə çevrilməsinə böyük qayğı ilə yanaşdığınıza görə neftçilərimiz Sizə daim minnətdardırlar. Onlar bu gün də Sizi öz sıralarında hiss edir, Sizi özlərinin ən sevimli dostu və himayədarı hesab edirlər.

Zati-alinizin dəfələrlə vurğuladığı kimi, müstəqil Azərbaycan dövlətçiliyinin memarı, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş yeni neft strategiyası ölkəmizi misilsiz inkişaf və tərəqqi yoluna çıxarmışdır və respublikanın bu yolla davamlı olaraq irəliləməsində müstəsna əhəmiyyət daşıyır. İqtisadiyyatı gün-gündən qüdrətlənən, beynəlxalq mövqeləri möhkəmlənən, regionun lider dövləti kimi böyük nüfuz sahibinə çevrilən respublikamız hazırda müasir tarixinin sosial-iqtisadi yüksəliş dövrünü yaşayır. Biz neftçilər bu gün Sizin inamlı rəhbərliyiniz altında xalqımızı, dövlətimizi qələbələrdən qələbələrə aparan dahiyanə enerji strategiyasının icra olunmasında yaxından iştirak etməkdən qürur duyuruq. Sevinir və fəxr edirik ki, Sizin həyata keçirdiyiniz uğurlu xarici və daxili siyasət nəticəsində Azərbaycan demokratik, hüquqi dövlət olaraq beynəlxalq aləmdə böyük rəğbət qazanmış, iqtisadi inkişaf tempinə görə misli görünməmiş tərəqqiyə nail olmuşdur. Xalqımızın rifah halı durmadan yüksəlir. Biz səmimi olaraq başa düşürük ki, bu gün ölkəmizdəki sabitliyi, firavanlığı, birliyi təmin edən taleyüklü uğurların şəriksiz müəllifi Zati-alinizdir. Odur ki, biz neftçilər həmişə olduğu kimi, bu gün də Sizin göstərdiyiniz tərəqqi və inkişaf yolu ilə dönmədən irəliləyir, Vətənimizin daha da qüdrətlənməsi naminə var gücümüzü səfərbər edirik. Bilirik ki, bu yol Heydər Əliyev yolu, qələbələr yoludur, yeganə düzgün yoldur!

Son illər dünyanın aparıcı neft, qaz və neft məhsulları ixracatçıları sırasında layiqli yer tutan Azərbaycanda kəşfiyyat, qazma, hasilat, emal sahələrində yeni-yeni uğurlar qazanılır. Bütün dünyanın diqqət mərkəzində olan qlobal əhəmiyyətli Cənub Qaz Dəhlizi layihəsinin təşəbbüskarı və hərəkətverici qüvvəsi Azərbaycandır. Avropanın enerji təhlükəsizliyi baxımından mühüm önəm daşıyan bu möhtəşəm layihə artıq sona çatmaqdadır. Azərbaycan nefti və qazı qonşu ölkələrin enerji təhlükəsizliyinin vacib amilinə çevrilmişdir. SOCAR artıq dünya bazarlarına uğurla inteqrasiya edərək, yaxın və uzaq xaricdə ölkəmizə strateji önəm daşıyan aktivlər qazandırır. Əldə etdiyimiz bütün bu nailiyyətlər ölkə həyatının müxtəlif sahələrində inkişafa müsbət təsirini göstərir, xalqımızın maddi rifah halının get-gedə daha da yaxşılaşmasına dəyərli töhfə verir.

***Əziz Prezidentimiz!***

Azərbaycan neftçiləri həyata keçirdiyiniz tarixi işlərdə həmişə Sizin sadiq köməkçiləriniz olmuşlar. Bu gün də belədir, gələcəkdə də belə olacaqdır. Zati-alinizin həyata keçirdiyi uğurlu islahatlar kursunun xalqımızın daha işıqlı gələcəyi naminə aparıldığına dərindən inanır, bu kursu hamılıqla dəstəkləyir, bu yolda öhdəmizə düşən işlərin öhdəsindən gəlmək üçün yorulmadan çalışırıq. Sizi əmin edirik ki, qarşımızda duran vəzifələri layiqincə yerinə yetirmək üçün, indiyə qədər olduğu kimi, bundan sonra da yorulmaq bilmədən əzmkarlıq göstərəcək, Azərbaycan neft-qaz sənayesinin şanlı zəfər salnaməsinə yeni-yeni parlaq səhifələr yazacağıq.

Sizə bir daha sonsuz minnətdarlığımızı bildirir, Vətənimiz Azərbaycanın qüdrətlənməsi naminə həyata keçirdiyiniz möhtəşəm işlərdə yeni-yeni uğurlar arzulayırıq. Tanrı yardımçınız olsun!

**Müraciət Neft Daşlarının 70 illiyi münasibətilə keçirilmiş təntənəli mərasimin iştirakçıları tərəfindən qəbul olunmuşdur.**